**AZƏRBAYCAN RESPUBLİKASININ**

# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**№ 86**

**Bakı şəhəri, 11 mart 2019-cu il**

### Peşə təhsili müəssisələrinin ayrı-ayrı peşə istiqamətləri üzrə tədris qruplarında orta sıxlığın müəyyən edilməsi haqqında

"Peşə təhsili haqqında" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1071-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyun tarixli 140 nömrəli Fərmanının 1.1.9-cu yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR**:

1. Aşağıda qeyd olunan peşə istiqamətləri üzrə tədris qruplarında orta sıxlıq 10 nəfərdən az 20 nəfərdən çox olmamaqla müəyyən edilir:

1.1. "Sənətşünaslıq, mədəniyyət və incəsənət" peşə istiqamətində aşağıdakı ixtisas qrupları üzrə:

1.1.1. "030104 Memarlıq hissələrinin modelləşdirilməsi və yapılması";

1.1.2. "030105 Dekorativ suvaq və yapma məmulatlarının bərpası";

1.1.3. "030106 İnşaat işlərinin bərpası";

1.1.4. "030107 Xalça və xalça məmulatlarının bərpası";

1.1.5. "030108 Daş və ağac memarlıq abidələrinin bərpası";

1.1.6. "030109 Musiqi alətlərinin bərpası";

1.1.7. "030110 İnteryer və eksteryerin bədii tərtibatı";

1.1.8. “030112 Ağacdan, keramikadan, metaldan hazırlanan bədii məmulatlar”;

1.1.9. “030113 Ağac və parça üzərində naxış və rəssamlıq”;

1.1.10. “030119 Xalq bədii yaradıcılığı”;

1.2. “İqtisadiyyat, xidmət, avtomatika və idarəetmə” peşə istiqamətində aşağıdakı ixtisas qrupları üzrə:

1.2.1. “030207 Kino-video nümayişi”;

1.2.2. “030211 Fotoqraf işi”;

1.3. “İlkin tələbat və ərzaq mallarının texnologiyası” peşə istiqamətində aşağıdakı ixtisas qrupları üzrə:

1.3.1. “030818 Tikiş istehsalatı”;

1.3.2. “030819 Modelçilik və dizayner”.

2. Bu Qərarın 1-ci hissəsində göstərilən peşə istiqamətləri istisna olmaqla, digər peşə istiqamətləri üzrə tədris qrupları 15 nəfərdən az 20 nəfərdən çox olmamaqla formalaşdırılır.

3. Tədris qruplarında təhsilalanların sayı 16 nəfərdən çox olduqda, laboratoriya və istehsalat təlimi dərslərində həmin qruplar 2 yarımqrupa bölünə bilər.

**Azərbaycan Respublikasının**
**Baş naziri** **Novruz Məmmədov**